**AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI KATİBLİYİNİN STRUKTURUNUN VƏ ŞTAT VAHİDLƏRİNİN YENİDƏN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ MƏRKƏZİ SEÇKİ KOMİSSİYASININ**

**Q Ə R A R I**

“Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli Qanununun 1-ci, 5.2-ci, 5.3-cü maddələrinə və digər müvafiq hüquqi aktlara əsasən siyasi partiyaların illik maliyyə hesabatlarının Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi və onun tərəfindən araşdırılaraq ictimailəşdirilməsi müəyyən edilmişdir. Bu isə siyasi partiyalarla bu istiqamətdə yeni hüquq münasibətlərinin əmələ gəlməsinə səbəb olmuş, aidiyyəti sənədlərlə işin qanunvericiliyin yeni tələblərinə uyğun qurulmasına zəmin yaratmış, həmin fəaliyyətin daha peşəkar və səmərəli həyata keçirilməsində birbaşa iştirak etməli olan Mərkəzi Seçki Komissiyası Katibliyinin mövcud strukturunun təkmilləşdirilərək yenidən təsdiq edilməsi zərurəti yaratmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 28.5-ci maddələrini və “Siyasi partiyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının 2014-cü il 30 sentyabr tarixli Qanununun 1-ci, 5.2-ci və 5.3-cü maddələrini rəhbər tutaraq **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturu və ştat vahidləri yenidən təsdiq edilsin (cədvəl əlavə edilir).
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr — Məzahir Pənahov

Katib — Arifə Muxtarova

Katib — Mikayıl Rəhimov